# İNKLÜZİV TƏHSİLDƏ MÜƏLLİM SƏRİŞTƏSİ

**MƏLAHƏT ABDULLAYEVA**

*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

azeriteacher@yahoo.com

***Açar sözlər:*** *inklüziv təhsil, inklüziv sinif, metod, səriştəli müəllim*

Bu gün təhsil sistemində "inklüziya" termini daha çox istifadə edilən anlayışlardan biridir. İnklüziya – bütün vətəndaşların, ilk növbədə, əlilliyi olan bütün insanların cəmiyyətdə iştirak səviyyəsinin artırılması prosesidir. 1994-cü ildə 92 dövlətin iştirakı ilə inklüziv təhsillə bağlı ilk rəsmi sənəd Salamanka Bəyannaməsi imzalandı. İnsan hüquqları prinsipinə əsaslanan inklüziv təhsil həm sağlam, həm də əlilliyi olan şəxslərin bərabər təhsilalma hüquqlarını təmin edir və onların cəmiyyətdə sosial bərabərliyinin qorunmasına, xüsusi ehtiyaclarının ödənilməsin şərait yaratmış olur (2).

İnklüziv siniflərdə dərs deyəcək müəllimlər inklüziv səriştəli olmalı, daim inklüziv təhsillə bağlı özünü təkmilləşdirməlidir. Hər bir dərsin təşkilinin ən optimal yollarını seçməklə təlim prosesini planlaşdırmalıdır. Müəllim kollektivdə hər kəsin fərdi bacarıq, qabiliyyət və ehtiyaclarını müəyyən etməli, təlim prosesində nəzərə almalı, çatışmazlıqları aradan qaldırmalıdır. Müəllim səriştəliliyi onun şəxsi keyfiyyətlərindən də asılıdır. Heç kəsi bacarıqsızlığa görə kollektivdən kənarlaşdırmamalıdır. Bütün şagirdlərə bərabər imkanlar və şərait yaratmağı bacarmalıdır. Bacarıq və qabiliyyətlərindən asılı olmayaraq bütün şagirdlərə bir kollektivin üzvü kimi baxmalıdır. Çünki, dərs demək istədiyimiz uşaqlar biz müəllimlərin seçimi deyil. Müəllim olmaq, dərs demək, öyrətmək isə bizim seçimimizdir. Deməli, biz müəllimlər öz seçimimizə hörmətlə yanaşmalı, dəyər verməliyik. Hər bir şagirdə verə biləcəyimiz ən gözəl hədiyyə onlara olan münasibətimizdir. Sinifdə olan bütün şagirdlərimizə «Öyrənmə hədiyyəsi», «Bilik və bacarıq hədiyyəsi», «Müəllim sevgisi» verməyi bacarmalıyıq. Bu bizim vəzifə borcumuzdur. Üzərimizə düşən vəzifəni yerinə yetirmək məqsədilə inklüziv





siniflərdə dərslərin planlaşdırılması modeli hazırlanmış, dərsin təşkilinin pedaqoji prinsipləri müəyyənləşdirilmişdir (6).

Məlumdur ki, təlim prosesində istifadə edilən metod və üsullar dərsin məqsədinin həyata keçirilməsi üçün bir vasitədir. Müəllim onları bacarıqla seçməli və tətbiq etməlidir. Metod və üsulları elə tətbiq etmək lazımdır ki, iş zamanı şagirdlərin fəaliyyət növləri dəyişsin. Mənimsəmə prosesində mümkün qədər çox analizatorun (eşitmə, görmə), motorika, yaddaş, məntiqi təfəkkür və s. fəaliyyəti təmin olunsun. Sağlamlıq imkanları məhdud olan uşaqlarla iş zamanı onların psixoloji xüsusiyyətlərinin nəzərə alınması çox vacibdir. Ümumiyyətlə, hər bir inklüziv səriştəli müəllim resurslardan istifadə etməklə fənni üzrə həvəs oyatmağı, məşğul etməyi, imkan yaratmağı, gücləndirməyi, korreksiyaedici-inkişafetdirici mühiti yaratmağı bacarmalıdır.

Məlumdur ki, təhsil hər bir uşağın həyatında əhəmiyyət kəsb edir. İnklüziv dərsə verilən tələblər şagirdlərimizi gələcək uğurlu həyata hazırlamağa zəmin yaradır. Odur ki, müəllim inklüziv siniflərdə şagirdlərə öhdəsindən gələ bilən tapşırıqlar verməli və onların hər gün inkişafına çalışmalıdır.

Təlim prosesində bütün öyrənənlərə bərabər və əlverişli təlim şəraitinin yaradılması, onların bacarıq və qabiliyyətlərinin inkişaf etdirilməsində müəllimin əvəzsiz rolu var. Hər bir müəllim inklüziv siniflərdə təlim prosesinə xüsusi diqqətlə yanaşmalı, inklüziv təhsilə aid biliklərini daim artırmağı hədəfləməlidir.

## Ədəbiyyat

1. "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanunu. Qanun nəşriyyatı, 2012.
2. Azərbaycanda İnklüziv Təhsilin Vəziyyətinə Dair Araşdırma Sənədi. Demokrativ Təşəbbüslər İnstitutu. Bakı, 2018.
3. Azərbaycanda əlilliyi olan uşaqlarla bağlı biliklər, münasibət və təcrübə. UNICEF, 2018.
4. Birləşmiş Millətlər Təşkilatı haqqında əsas faktlar. Birləşmiş Millətlər Təşkilatının İctimai İnformasiya Departamenti. Nyu York, 2011.
5. Süleymanova A. Təhsilin əsasları. Bakı, «Təhsil», 2014.
6. İnklüziv siniflərdə təlimin təşkili. TİPİİ, Oxu materialı, Bakı, 2018.
7. Ümumdünya İnsan Hüquqları Bəyannaməsi. Birləşmiş Millətlər Təşkilatı. http://iepf- ngo.org/az/documents/14/1067
8. https://www.kqed.org/education/75955/5-effective-strategies-for-the-inclusive-classroom

9. http://www.tipii.edu.az/noduploads/document/8588_oxu-materiali-inkluziv-tahsil.pdf